# PAULUN FİLİPİLİLƏRƏ MƏKTUBU

## GİRİŞ

Paulun *«Filipililərə Məktubu»* onun Roma imperatorluğunun vilayəti olan Makedoniyada əsasını qoyduğu cəmiyyətə ünvanlanıb. Paul bu məktubu zindanda olarkən yazmışdı. O zaman həvari başqa məsihçi həmkarlarının ona qarşı çıxmasına və bu cəmiyyətdə yanlış təlimlərin yayılmasına görə narahat idi. Amma onun çəkdiyi əzab-əziyyətlərə baxmayaraq, bu məktub sevinc və inam ruhunda yazılmışdır. Bunu yalnız Paulun İsa Məsihə böyük imanı ilə izah etmək olar.

Bu məktubun yazılmasının səbəbi Paulun Filipi imanlılarına onun ehtiyac içində olarkən göndərdikləri maddi yardıma görə minnətdarlığını bildirmək idi. Həvari onları ruhlandırırdı ki, çəkdikləri əzablara baxmasınlar və onun kimi mətin olsunlar. Paul Filipi imanlılarını xudbin və qürurlu olmaq əvəzinə İsa Məsih kimi həlim və itaətkar olmağa çağırır. Paul yada salır ki, onların Məsihlə birliyi Allahın lütfü ilə, iman vasitəsilə aldıqları hədiyyədir və bu, Yəhudi qanununun mərasimlərinə əməl etmək vasitəsilə əldə olunmayıb. Paul həm də İsa Məsihlə birlikdə yaşayanlar üçün Allahın bəxş etdiyi sevinc və sülhdən yazır.

Bu məktub həm də məsihçi imanında və həyatında olan sevinc, əminlik, birlik və dözümü vurğulayır.

**Məktubun məzmunu:**

1:1-11 Salamlar, təşəkkür və dua
1:12-26 Paulun vəziyyəti
1:27–2:18 Ruhlandırıcı sözlər
2:19-30 Timotey və Epafrodit üçün planlar
3:1-21 Həqiqi salehlik
4:1-23 Son öyüdlər və təşəkkürlər

1 *Məsih İsanın qulları mən Paul və Timoteydən
Filipidə olan cəmiyyət nəzarətçiləri və xidmətçiləri
ilə bərabər Məsih İsada müqəddəs olanların
hamısına salam! 2 Atamız Allahdan və Rəbb İsa
Məsihdən sizə lütf və sülh olsun!

*Şükür və dualar*

3 Sizi hər dəfə yada salanda Allahıma şükür
edirəm. 4 Həmişə hamınız üçün hər bir diləyimdə
sevinə-sevinə dua edirəm. 5 Çünki ilk gündən
indiyədək Müjdəni yaymaqda şərik oldunuz.
6 Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih
İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq.
7 Hamınız haqqında belə düşünməkdə haqlıyam,
çünki qəlbimdə yeriniz var. İstər həbsdə olsam,
istər Müjdəni müdafiə və təsdiq etsəm, hamınız
mənimlə bərabər Allahın lütfünə şəriksiniz. 8 Allah
şahidimdir ki, Məsih İsanın duyğusu ilə hər birinizin
həsrətini çəkirəm. 9 Dua edirəm ki, məhəbbətiniz
bilik və hər cür idrak baxımından get-gedə daha
çox artsın, 10-11 siz Məsihin zühur edəcəyi gün
pak və nöqsansız, Allahın izzəti və mədhi üçün İsa
Məsihdən gələn salehlik bəhrələri ilə dolu olmaq
üçün ən ali dəyərləri ayırd edə biləsiniz.

---

* **1:1** Həv. 16:12

*Müjdəni yayma*

12 Qardaşlar, bunu sizə bildirmək istəyirəm ki,
başıma gələnlər Müjdə yaymağı daha da irəli
apardı. 13 *Belə olanda bütün saray mühafizəçiləri
daxil olmaqla hamıya məlum oldu ki, Məsihdə
olduğuma görə həbs olunmuşam. 14 Həmçinin qar-
daşlardan əksəriyyəti mənim həbsimdən ötrü Rəbbə
güvənərək kəlamı* qorxmadan bəyan etmək üçün
daha çox cəsarət göstərdi.
15 Doğrusu, bəziləri paxıllıq və rəqabət, bəziləri
isə yaxşı niyyətlə Məsihi vəz edirlər. 16 Bəziləri
bunu məhəbbətlə edirlər, çünki bilirlər ki, mən
Müjdəni müdafiə etmək üçün təyin edilmişəm.
17 Bəziləri isə Məsihi səmimiliklə deyil, məhbus
halımda guya mənə əziyyət verməklə özlərini
göstərmək üçün bəyan edirlər.† 18 Nə olar? İstər
riyakarlıqla, istərsə də səmimiliklə, nə cür olursa-
olsun, əsasən Məsih bəyan edilir, mən buna
sevinirəm. Əlbəttə, sevinəcəyəm, 19 çünki bilirəm
ki, bunun nəticəsi dualarınızla və İsa Məsihin
Ruhunun köməyi ilə mənim xilasım olacaq.
20 Böyük həvəslə gözləyir və ümidvaram ki, heç bir
vəziyyətdə utandırılmayacağam, yaşasam da, ölsəm
də, həmişəki kimi indi də bədənimdə Məsihin
ucalması üçün tam cəsarət göstərə biləcəyəm.
21 Çünki mənim üçün yaşamaq Məsihdir, ölməksə
qazancdır. 22 Lakin cismən yaşasam, faydalı işlər
görə biləcəyəm. Buna görə nə seçəcəyimi bilmirəm.
23 Hər iki tərəfdən yolum kəsilib. Arzum buranı

* **1:13** Həv. 28:30 * **1:14** Kəlamı – bəzi əlyazmalarda Allahın kəlamını. † **1:17** Bəzi əlyazmalarda 16-cı ayə ilə 17-ci ayənin yeri dəyişikdir.

tərk edib Məsihlə olmaqdır, çünki bu lap yaxşıdır.
24 Amma sağ qalmağım sizin üçün daha lazımlıdır.
25 Buna əmin olaraq bilirəm: sağ qalacağam və
hamınızla birlikdə qalmaqda davam edəcəyəm
ki, imanda həm iräliləyəsiniz, həm də sevinəsiniz.
26 Belə ki bir də yanınıza gəldiyim üçün mənə görə
Məsih İsada fəxriniz artsın.

27 Lakin həyat tərziniz Məsihin Müjdəsinə
layiq olsun. Gəlib sizi görsəm də, gəlməyib
haqqınızda eşitsəm də, bilim ki, siz bir ruhda
möhkəm dayanıb Müjdəyə əsaslanan imanda
canbir olaraq səy göstərirsiniz 28 və heç bir şəkildə
əleyhdarlarınızdan qorxmursunuz. Bu onlar üçün
həlak, sizin üçünsə xilas əlamətidir. Bu da Allahın
işidir. 29 *Çünki sizə yalnız Məsihə iman etmək
deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də
ehsan olundu. 30 Apardığım mübarizəni əvvəldən
gördünüz, indi də bunun haqqında eşidir və siz də
həmin mübarizəni aparırsınız.

# 2

### *Məsihdən nümunə götürün*

1 Beləliklə, Məsihdə bir ruhlandırılma,
məhəbbətdən yaranan bir təsəlli, Ruha bir şəriklik,
bir rəhm və mərhəmət varsa, 2 həmfikir olub
bir-birinizə eyni məhəbbəti göstərərək canbir
və həmrəy olmağınızla sevincimi bütövləşdirin.
3 Heç bir işi özünü göstərərək və ya lovğalıqla
etməyin. Qoy hər biriniz itaətkarlıqda digərini
özündən üstün saysın 4 və yalnız öz mənfəətini
deyil, başqalarının da mənfəətini güdsün. 5 Məsih

* **1:29** Həv. 16:19-40

İsa necə düşündü, siz də elə düşünün. 6 Allah
surətində olduğu halda O Özünü Allaha bərabər
tutmağı bir haqq saymadı. 7 Lakin Özünü heç etdi
və qul surətinə salıb insanlara oxşar oldu. İnsan
şəklini alıb 8 Özünü aşağı tutdu və ölümə qədər –
çarmıx üzərində ölümə qədər itaət göstərdi. 9 Buna
görə də Allah Onu çox ucaltdı və Ona lütflə bütün
adlardan ali bir ad verdi ki, 10 *göydə, yerdə və
yerin altında olanların hamısı İsanın adına ehtiram
edərək diz çöksün 11 və hər dil Ata Allahın izzəti
üçün İsa Məsihin Rəbb olduğunu bəyan etsin.

*Xilasınızı əməllərinizdə göstərin*

12 Belə isə, ey sevimlilərim, həmişə itaətli
olduğunuz kimi yalnız mən yanınızda olanda
yox, xüsusən yanınızda olmadığım bu anda belə,
qorxu və lərzə ilə xilasınızı əməllərinizdə göstərin.
13 Çünki sizdə fəaliyyət göstərən Allahdır, belə
ki Onun xoş məramını həm istəyəsiniz, həm də
bunun üçün fəaliyyət göstərəsiniz. 14 Hər şeyi
şikayətlənmədən, mübahisə etmədən yerinə yetirin
ki, 15 nöqsansız və saf olaraq bu əyri və azmış
nəsil arasında Allahın ləkəsiz övladları olasınız.
Onların arasında dünyanın nuru kimi parlayın.
16 Həyat sözünü təqdim edin. Qoy Məsihin zühur
edəcəyi gündə fəxr edə bilim ki, nə boş yerə cəhd
etdim, nə də boş yerə zəhmət çəkdim. 17 Lakin sizin
imanınızın qurban və xidməti üzərinə içmə təqdimi
kimi töküləcəyəmsə də, sevinirəm və hamınızın
sevincinə şərikəm. 18 Siz də məhz bunun üçün
sevinin və mənim sevincimə şərik olun.

* **2:10** Yeş. 45:23; Rom. 14:11

## *Timotey və Epafrodit*

19 Vəziyyətinizdən xəbərdar olub ürəyim
sakitləşsin deyə bu yaxınlarda Timoteyi yanınıza
göndərəcəyim üçün Rəbb İsada ümidim var. 20 Çünki
Timotey kimi mənimlə canbir olan, həqiqətən
qayğınıza qalan başqa kimsəm yoxdur. 21 Ona görə
ki hər kəs İsa Məsihin xeyrini deyil, öz xeyrini
güdür. 22 Amma Timoteyin öz dəyərini necə sübut
etdiyini, atasının yanında qulluq edən oğul kimi
Müjdəni yaymaq işində mənimlə birgə qulluq
etdiyini bilirsiniz. 23 Beləliklə, işlərimin nə yerdə
olduğunu bilən kimi onu yanınıza göndərmək
ümidindəyəm. 24 Mən də yaxında yanınıza gəlməyim
barədə Rəbbə güvənirəm.

25 Lakin ehtiyacımın təminatına görə mənə
yardım etmək üçün göndərdiyiniz nümayəndəni,
qardaşım, əməkdaşım və birlikdə mübarizə
apardığım Epafroditi yanınıza qaytarmağı lazım
bildim. 26 Çünki o hər birinizdən ötrü darıxır
və onun xəstə olduğunu eşitdiyinizə görə çox
narahat idi. 27 O, həqiqətən, elə xəstələnmişdi
ki, az qala ölsün. Lakin Allahın ona, yalnız
ona deyil, kədərimin üstünə kədər gəlməsin
deyə həm də mənə rəhmi gəldi. 28 Onu yanınıza
göndərməyə daha çox buna görə razılıq verdim
ki, onu yenidən görüb sevinəsiniz və mənim də
kədərim yüngülləşsin. 29 Rəbdə olan bu adamı tam
sevinclə qəbul edin və belələrini qiymətləndirin.
30 Çünki o, Məsihin işi uğrunda az qala öləcəkdi.
Sizin mənə edə bilmədiyiniz köməyi etmək üçün
canını təhlükəyə atdı.

# 3

## *Həqiqi salehlik*

1 Nəhayət, qardaşlarım, Rəbdə sevinin! Sizə eyni
şeyləri yazmaq məni yormaz, amma sizi qoruyar.

2 Özünüzü «itlər»dən qoruyun, pis iş görənlərdən
qoruyun, bədəni sünnət edərək kəsib-atanlardan
qoruyun. 3 Çünki əsl sünnətlilər Allahın Ruhu
vasitəsilə ibadət edən, Məsih İsa ilə fəxr edən və
cismani şeylərə güvənməyən bizlərik. 4 Əslində
mən cismani şeylərə də güvənə bilərdim. Əgər
başqası cismani şeylərə güvənməyi düşünürsə, mən
daha çox güvənə bilərəm. 5 *Mən səkkizgünlük
ikən sünnət olundum. İsrail nəslindən, Binyamin
qəbiləsindən, İbranilərdən törəmiş bir İbraniyəm.
Qanuna münasibətdə farisey idim. 6 *Qeyrət
çəkməyə gəlincə, Allahın cəmiyyətini təqib
edirdim. Qanuna əsaslanan salehliyə gəlincə,
nöqsansız idim. 7 Amma mənə fayda gətirən nə
varsa, Məsih uğrunda ziyan saymışam. 8 Bundan
əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin
yanında hər şeyi ziyan hesab edirəm. Onun
uğrunda var-yoxumu atıb tullantı sayıram ki,
Məsihi qazanıb 9 Onda hesab olunum. Belə
ki Qanunla gələn öz salehliyimə deyil, Məsihə
imandan yaranan, imanla Allahdan gələn
salehliyə malik olum. 10 Belə ki Məsihi və Onun
dirilmə qüdrətini, əzablarına şərikliyi də dərk edim
və Onun ölümündə Ona bənzəyim ki, 11 nə olursa-
olsun, ölülər arasından dirilməyə nail olum.

---

* **3:5** Həv. 23:6; 26:5; Rom. 11:1 * **3:6** Həv. 8:3; 22:4; 26:9-11

*Hədəfə doğru qaçaq*

12 Demirəm ki, indi bunlara malik olmuşam və
yaxud kamilləşmişəm. Amma hədəfdən tutmaq
üçün qaçıram. Çünki Məsih İsa məni bu məqsəd
üçün tutub. 13 Qardaşlar, hesab etmirəm ki, bunu
tutmuşam. Yalnız bir şey edirəm: arxada qalan-
ları unudub qarşımda olana çatmaq üçün cəhd
edirəm 14 və hədəfə doğru qaçıram ki, mükafatı
alım, yəni Allahın Məsih İsada yuxarıya çağırışına
nail olum. 15 Beləliklə, aramızda kim kamildirsə,
qoy belə düşünsün. Hər hansı bir mövzuda fərqli
düşüncələriniz varsa, Allah bunu da sizə açacaq.
16 Ancaq çatdığımız səviyyəyə uyğun həyat sürək.*
17 *Qardaşlar, hamınız birlikdə məndən nümunə
götürün və sizə göstərdiyimiz nümunəyə uyğun
həyat sürənlərə diqqətlə baxın. 18 Sizə dəfələrlə
söylədiyim kimi indi də göz yaşları içində təkrar
deyirəm: bir çoxları Məsihin çarmıxına düşmən
olaraq həyat sürür. 19 Onların sonu həlakdır.
Onların allahı qarınlarıdır. Öz rüsvayçılıqları ilə
fəxr edir, yalnız dünyəvi şeylər barədə düşünürlər.
20 Bizsə səma vətəndaşlarıyıq və oradan Xilaskar
olan Rəbb İsa Məsihi həvəslə gözləyirik. 21 O hər
şeyi Özünə tabe etməyə qadir olan qüvvəsinin təsiri
ilə bizim yazıq bədənimizi dəyişdirib Öz izzətli
bədəninə bənzər hala gətirəcək.

# 4

*Son öyüdlər*

* **3:16** Sürək – bəzi əlyazmalarda sürək və eyni düşüncədə olaq.
* **3:17** 1Kor. 4:16; 11:1

1 Beləliklə, ey həsrətini çəkdiyim sevimli qar-
daşlarım, sevincim və başımın tacı, Rəbdə olaraq bu
cür dönməz durun, ey sevimlilər!

2 Evodiyaya yalvarıram, Sintixiyə yalvarıram ki,
Rəbdə həmfikir olsunlar. 3 Bəli, ey əsl əməkdaşım,
səndən də xahişim var, bu qadınlara kömək et.
Çünki onlar mənimlə, Klementlə və adları həyat
kitabında olan digər əməkdaşlarımla bərabər
Müjdəni yaymaq üçün səy göstəriblər.

4 Rəbdə həmişə sevinin! Bir də deyirəm: sevinin!
5 Qoy sizin mülayimliyiniz bütün insanlara məlum
olsun. Rəbb yaxındır. 6 Heç nəyin qayğısını
çəkməyin, amma hər barədə xahişlərinizi Al-
laha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin.
7 Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və
düşüncələrinizi Məsih İsada qoruyacaq.

8 Nəhayət, qardaşlar, doğru, ləyaqətli, saleh, pak,
cazibəli, etibarlı nə varsa, əgər əla və tərifə layiq
nə varsa, bunları düşünün. 9 Məndən öyrəndiyiniz,
qəbul etdiyiniz, eşitdiyiniz və məndə gördüyünüz nə
varsa, bunları həyata keçirin. Onda sülh qaynağı
olan Allah sizinlə olacaq.

### *Paulun təşəkkürü*

10 Mən Rəbdə bol-bol sevinirəm ki, nəhayət
indi mənim barəmdəki qayğınızı yenidən can-
landırdınız. Əslində qayğınız vardı, amma bunu
göstərməyə fürsət tapa bilmirdiniz. 11 Ehtiyaca
düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı
şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam.
12 Mən məzlumluğun da, bolluğun da nə olduğunu
bilirəm. İstər tox, istər ac, istər bolluq, istər ehtiyac

içində olum, hər şəraitdə, hər vəziyyətdə razı qal-
mağın sirrini öyrənmişəm. 13 Mənə qüvvət verən
Məsihin köməyi ilə hər işə gücüm çatır. 14 Buna
baxmayaraq nə yaxşı ki əziyyətimə şərik oldunuz.
15 *Ey Filipililər, özünüz də bilirsiniz ki, aranızda
Müjdə yayımının başlanğıcında, mən Makedoniyanı
tərk edən zaman sizdən başqa heç bir cəmiyyət
nəzir vermək və toplamaq üçün mənimlə şərik iş
görmədi. 16 *Mən Salonikdə olanda belə, ehtiyacım
üçün dəfələrlə siz mənə yardım göndərdiniz. 17 Bu
o demək deyil ki, mən bəxşiş axtarıram. Mən
ancaq sizin hesabınıza yazıla bilən səmərəni ax-
tarıram. 18 *Mənsə tamamilə təmin olunmuşam və
bolluq içindəyəm. Epafroditin əli ilə göndərdiyiniz
hədiyyələri alandan sonra ehtiyacım qalmadı. Bu,
Allahın xoşuna gələn ətirli təqdim, Ona məqbul
olan və razı salan qurbandır. 19 Sizin hər ehtiy-
acınızı isə Allahım Məsih İsada olan Öz izzətli
zənginliyinə görə ödəyəcək. 20 Qoy Atamız Allaha
əbədi izzət olsun! Amin.

### *Salam göndərmə*

21 Məsih İsada müqəddəs olan hər kəsi salam-
layın.
Mənimlə olan qardaşlar sizə salam göndərir.
22 Sizi bütün müqəddəslər, xüsusən qeysərin
sarayında işləyənlər salamlayır.
23 Rəbb İsa Məsihin lütfü ruhunuza* yar olsun!

---

* **4:15** 2Kor. 11:9 * **4:16** Həv. 17:1 * **4:18** Çıx. 29:18 * **4:23** Ruhunuza – bəzi əlyazmalarda hər birinizə.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985